YER VƏ İNSAN
Beynəlxalq multidisiplinar elmi-nəzəri jurnal
International multidisciplinary scientific - theoretical journal
01 (25) 2026 (səh./p. 33-40)



UOT 338.43
DOI:10.30546/25194011.2026.101.6.1.119

# AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ BEYNƏLXALQ TİCARƏTİNDƏ RUSİYANIN ROLU

**FAMİL RÜSTƏMOV**
*AR ETN İqtisadiyyat İnstitutu,*
*"Aqrar sektorun iqtisadi problemləri"*
*şöbəsinin müdiri, i.f.d., dosent*

*E-mail: Familrustamov456@gmail.com*

**XÜLASƏ**

Məqalədə Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsullarının beynəlxalq ticarətində Rusiya Federasiyasının rolu təhlil olunmuşdur. Tədqiqat zamanı Azərbaycanın kənd təsərrüfatı məhsullarının xarici ticarət potensialı, aqrar məhsulların Rusiya bazarına çıxış imkanları, mövcud çətinliklər və bu bazardan asılılığın doğura biləcəyi iqtisadi risklər araşdırılmışdır. Müəyyən olunmuşdur ki, Rusiya Federasiyası Azərbaycanın ənənəvi və vacib ticarət tərəfdaşı olaraq qalmaqda davam edir, lakin təkbazarlı asılılıq uzunmüddətli dövrdə Azərbaycanın ticarət təhlükəsizliyinə ciddi mənfi təsir göstərə bilər. Bu səbəbdən məqalədə ixrac və idxalın şaxələndirilməsi, yeni bazarlara çıxış imkanlarının artırılması və kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində təklif və tövsiyələr verilmişdir.

**Açar sözlər:** Rusiya, Azərbaycan, idxal, ixrac, ticarət, kənd təsərrüfatı məhsulları, meyvə, tərəvəz.

## Azərbaycanın kənd təsərrüfatı məhsullarının xarici ticarət potensialı

Azərbaycanın kənd təsərrüfatı sektoru ölkə iqtisadiyyatının mühüm sahələrindən biri olmaqla yanaşı, qeyri-neft ixracının genişləndirilməsində də vacib rol oynayır. İqlim şəraitinin rəngarəngliyi və müxtəlifliyi, münbit torpaqlar və əmək resursları, zəngin istehsal ənənələri ölkədə kənd təsərrüfatı məhsullarının çeşidli və keyfiyyətli şəkildə istehsalına imkan yaradır. Xüsusilə meyvə və tərəvəz məhsulları, üzüm, pambıq və digərləri yüksək ixrac potensialına malikdir.

Son illərdə həyata keçirilən dövlət proqramları və dəstək mexanizmləri (subsidiyalar, güzəştli kreditlər, ixrac təşviqləri və s.) kənd təsərrüfatı məhsullarının istehsal həcmini artırmaqla yanaşı, onların beynəlxalq bazarlara çıxış imkanlarını da genişləndirmişdir. Ərzaq təhlükəsizliyi və ixracyönümlü istehsalın təşviqi nəticəsində bir sıra məhsullar üzrə ixrac potensialı yüksəlmişdir. Bu sıraya əsasən pomidor və digər tərəvəz məhsulları, meyvələr, o cümlədən fındıq, şaftalı, nektarin, alma, xurma, gilas, nar və s. məhsullar daxildir.

Statistika Komitəsinin, Dövlət Gömrük Komitəsinin, İqtisadiyyat Nazirliyinin məlumatlarına əsasən, son illərdə kənd təsərrüfatı məhsullarının ixracı ümumi ixracın təxminən 6–7 faizini təşkil edir ki, bu da, qeyri-neft sektorunda kənd təsərrüfatının payının artmaqda olduğunu deməyə əsas verir.

2024-cü ildə Azərbaycanın qeyri-neft-qaz ixracı 2023-ci illə müqayisədə 0,3% artaraq 3,4 milyard ABŞ dolları təşkil edib. Həmin dövrdə yeyinti məhsullarının ixracı 11,3% artaraq 1,03 milyard ABŞ dollarına bərabər olub. 2024-cü ilin 12 ayı ərzində ixrac olunan şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 62,4% artaraq 38,5 milyon ABŞ dolları, pambıq lifi 45,2% artaraq 178,2 milyon ABŞ dolları, bitki mənşəli yağlar və piylər 32,8% artaraq 28,9 milyon ABŞ dolları təşkil edib. 2024-cü ildə aqrar məhsulların ixracı 2,8% artaraq 789,4 milyon ABŞ dolları, aqrar-sənaye məhsullarının ixracı 57,3 % artaraq 316,1 milyon ABŞ dollarına bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 14,1% artaraq 1,1 milyard ABŞ dolları təşkil edib. 2024-cü ildə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (211,8 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq mahlıcı (177.1 milyon ABŞ dolları) ikinci, pomidor (175.4 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşıb. 2024-cü ildə Rusiya Federasiyasına 1.2 milyard ABŞ dolları, Türkiyəyə 542,3 milyon ABŞ dolları, Gürcüstana 272,4 milyon ABŞ dolları, İsveçrəyə 220,4 milyon ABŞ dolları, ABŞ-a isə 134,7 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub [1].

Son illər aparılmış islahatlar, həyata keçirilmiş məqsədyönlü proqramlar nəticəsində Azərbaycanın ticarət tərəfdaşlarının coğrafiyası getdikcə genişlənsə də, əsas ixrac həcmləri hələ də region ölkələ-

rinin payına düşür. Rusiya bazarı isə bir sıra qida və kənd təsərrüfatı məhsullarının idxal və ixracında lider mövqedədir. Bir neçə kənd təsərrüfatı məhsulları üzrə isə Rusiya Federasiyası əsas və hələlik yeganə bazar olaraq qalmaqdadır. Halbuki həmin məhsulların alternativ bazarlara çıxarmaq imkanları olduqca yüksəkdir. Ticarət potensialının tam reallaşdırılması üçün logistika imkanlarının genişləndirilməsi, keyfiyyət və fitosanitar standartlara uyğunluğun təmin olunması, məhsulların brendləşdirilməsi və sertifikatlaşdırılması kimi məsələlər xüsusi əhəmiyyət daşıyır. Həmçinin Avropa və Asiya bazarlarına inteqrasiyanı gücləndirən yeni təşəbbüslərin tətbiqi də ixrac coğrafiyasının diversifikasiyasına xidmət edə bilər.

**Rusiya Federasiyası ilə ticarət əlaqələrinin xüsusiyyətləri**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mövcud olan kənd təsərrüfatı ticarəti uzunmüddətli iqtisadi və mədəni qonşuluq münasibətlərinə əsaslanır. Hər iki ölkə MDB məkanında yer alır və bu səbəbdən gömrük prosedurlarında nisbətən sadəlik, logistika yaxınlığı və tələb-təklif balansı baxımından əlverişli şərait formalaşmışdır. Rusiya Federasiyasında kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə ticarəti ilə məşğul olan şəxslərin bir qisminin əslən Azərbaycandan olması və ya Azərbaycana yaxınlığı bu sahədə ticarət əlaqələrinin inkişafını dəstəkləyən amillərdəndir. Bundan başqa, Azərbaycan məhsullarının Rusiya bazarında tanınması və müsbət reputasiyası da ixracın davamlılığını təmin edən mühüm amillərdəndir. Rusiya bazarı Azərbaycan kənd təsərrüfatı məhsulları üçün strateji əhəmiyyət kəsb edir. Xüsusilə təzə meyvə-tərəvəz, fındıq, xurma, nar və üzüm məhsulları bu bazarda böyük rəğbətlə qarşılanır. Rusiya geniş əhali bazarına malik olmaqla yanaşı, keyfiyyətli və mövsümi məhsullara da yüksək tələbat nümayiş etdirir. Azərbaycandan ixrac olunan kənd təsərrüfatı məhsullarının ən böyük payı məhz Rusiya istiqamətində yönəlir. Məsələn, bəzi illərdə pomidor ixracının 90%-dən çoxu yalnız bu bazara həyata keçirilmişdir.

İki ölkə arasında bağlanmış iqtisadi-ticarət sazişləri, fitosanitar protokollar və gömrük prosedurlarının sadələşdirilməsi haqqında razılaşmalar ticarət əlaqələrinin institusional əsasını təşkil edir.

Bununla belə, Rusiya ilə ticarət əlaqələrində müəyyən çağırışlar da mövcuddur. Bura sanksiyaların dolayı təsirləri, rublun məzənnə dəyişkənliyi, qeyri-sabit siyasi davranışların fonunda fitosanitar və digər yoxlamaların bəzən qəfil sərtləşdirilməsi, ticarətdə asılılıq səviyyəsinin yüksəkliyi daxildir. Bəzi hallarda bu amillər məhsulun ixracında gecikmələrə, müəyyən itkilərə səbəb olur.

Ümumilikdə, Azərbaycan üçün Rusiya bazarı hələ də ən əhəmiyyətli və gəlirli istiqamətlərdən biridir. Lakin bu bazarda mövcud üstünlüklərin saxlanılması üçün məhsul keyfiyyətinin artırılması, logistika xidmətlərinin təkmilləşdirilməsi və dövlət səviyyəsində koordinasiyanın gücləndirilməsi zəruridir. Eyni zamanda, alternativ bazarların inkişaf etdirilməsi də risklərin azaldılmasına xidmət edə bilər.

**2023-cü ildə bəzi aqrar məhsulların ixracında Rusiyanın mövqeyi**

| Məhsul | Cəmi | | Rusiya | | Rusiyanın payı, faizlə (miqdar) | Rusiyanın payı, faizlə (məbləğ) |
|---|---|---|---|---|---|---|
| | Miqdar | Məbləğ (min ABŞ dolları) | Miqdar | Məbləğ (min ABŞ dolları) | | |
| Kartof, ton | 71 192,3 | 30 930,3 | 62 642,2 | 28 081,0 | 88 | 90,8 |
| Təzə tərəvəz, ton | 178 792,0 | 180 587,2 | 156 501,4 | 169 767,8 | 87,5 | 94 |
| Təzə meyvə, ton | 454 856,0 | 502 107,7 | 404 198,9 | 414 831,1 | 88,9 | 82,6 |
| Meyvə və tərəvəz konservləri, ton | 9 932,5 | 13 425,7 | 6 557,0 | 6 348,4 | 66 | 47,2 |
| Meyvə və tərəvəz şirələri, ton | 16 093,8 | 20 420,4 | 11 329,9 | 15 322,6 | 70,3 | 75 |
| Təbii üzüm şərabları və üzüm suslosu, min dkl. | 317,3 | 6 987,2 | 281,7 | 5 681,7 | 88,7 | 81,3 |
| Tütün, ton | 3 041,6 | 6 858,7 | 1 738,5 | 2 958,4 | 57,2 | 43,1 |

*Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Təqdim olunan cədvəldə 2023-cü ildə ixracda Rusiya Federasiyasının payı çox yüksək olan bir sıra aqrar və aqrar-sənaye məhsulları göstərilmişdir.

Göründüyü kimi, həmin ildə ixrac olunan təzə meyvənin natural ifadədə 88,9 faizi, dəyər ifadəsində isə 82,6 faizi, təzə tərəvəzin isə müvafiq olaraq 87,5 və 94 faizi Rusiya Federasiyasına ixrac olunmuşdur. Digər aqrar və aqrar-sənaye məhsulları üzrə də RF-nın payı yüksəkdir.

**2023-cü ildə bəzi aqrar məhsulların idxalında Rusiyanın mövqeyi**

| Məhsul | Cəmi | | Rusiya | | Rusiyanın payı, faizlə (miqdar) | Rusiyanın payı, faizlə (məbləğ) |
|---|---|---|---|---|---|---|
| | Miqdar | Məbləğ (min ABŞ dolları) | Miqdar | Məbləğ (min ABŞ dolları) | | |
| Diri iribuynuzlu heyvanlar, ədəd | 92 301 | 76 534,0 | 46 247 | 34 843,3 | 50,1 | 45,5 |
| Kartof, ton | 172 657,0 | 49 174,6 | 73 504,8 | 18 884,4 | 42,5 | 38,4 |
| Buğda, min ton | 1 175,3 | 303 983,1 | 1 022,1 | 252 091,9 | 87 | 83 |
| Buğda unu, ton | 71 955,0 | 20 792,0 | 71 780,5 | 20 607,0 | 99,7 | 99,1 |
| Bitki yağları, ton | 121 179,9 | 141 291,6 | 62 777,1 | 64 281,3 | 51,8 | 45,4 |
| Marqarin, qida üçün yararlı digər qarışıqlar, ton | 23 047,7 | 36 763,7 | 19 901,1 | 30 879,9 | 86,3 | 84 |
| Ət kolbasası və digər analoji məhsullar, ton | 6 130,1 | 16 407,2 | 4 995,8 | 11 179,7 | 81,5 | 68,1 |
| Şəkərdən hazırlanan qənnadı məmulatları, ton | 23 669,6 | 50 014,6 | 9 947,7 | 20 343,3 | 42 | 40,6 |
| Şokolad və şokolad məhsulları, ton | 30 769,8 | 108 236,2 | 17 530,2 | 47 651,0 | 57 | 44 |
| Çörək, unlu qənnadı məmulatları, ton | 45 428,8 | 112 581,7 | 14 706,1 | 32 123,6 | 32,3 | 28,5 |
| Etil spirti, min dkl. | 226,3 | 1 883,6 | 120,6 | 861,8 | 53,2 | 45,7 |
| Araq, min dkl. 100%-li spirtlə | 87,9 | 9 331,3 | 37,5 | 3 510,6 | 42,6 | 37,6 |
| Mineral gübrələr, ton | 137 123,7 | 69 820,9 | 120 264,8 | 48 808,3 | 87,7 | 70 |

*Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Uzun illər Azərbaycan ərzaqlıq buğdanı əsasən RF-dan idxal edib. 2023-cü ildə də idxal olunan buğdanın fiziki çəkidə 87 faizi RF-nin payına düşüb. Rusiya-Ukrayna münaqişəsi başlayandan sonra Ukraynadan diri iribuynuzlu heyvan idxalında yaranan problemlər bu seqmentdə Rusiyanın mövqeyini xeyli gücləndirdi. 2023-cü ildə idxal olunan 92 min başdan bir qədər çox diri iribuynuzlu heyvanın tən yarısı Rusiyanın payına düşür.

Azərbaycanın kənd təsərrüfatı ixracı əsasən Rusiya bazarına yönəlmişdir. Onu qeyd etməliyik ki, bu bazar ticarət tənzimləmələri baxımından qeyri-sabit, həm də Avropa İttifaqı, ərəb ölkələri bazarı ilə müqayisədə ucuz bazardır. Bir bazardan asılılıq ölkənin kənd təsərrüfatı məhsulları ixracının inkişaf potensialını məhdudlaşdırmaqla yanaşı, sektoru iqtisadi və siyasi risklərə qarşı da həssaslaşdırır.

Bu riskləri azaltmaq üçün dövlət ixrac bazarlarının şaxələndirilməsinə xüsusi diqqət yetirməlidir. Bununla bağlı hazırda bir sıra fəaliyyətlər ("Made in Azerbaijan" brendinin təşviqi, xarici ölkələrdə ticarət evlərinin açılması, biznes forumların, ixrac missiyalarının təşkili və s.) həyata keçirilsə də hələ ki, arzuolunan nəticələr əldə edilməmişdir.

Həm böyüklüyü, həm qiymət səviyyəsi, həm də yaxınlığı baxımından Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixracı üçün ən perspektivli bazar Avropa İttifaqı bazarıdır. Hazırda çox az sayda yerli məhsul (fındıq, nar şirəsi və s.) bu bazara çıxır. Məhz bu məhsulların Aİ bazarına çıxa bilməsinin səbəbi isə onların çox az sayda ölkə tərəfindən ixrac olunması ilə əlaqədar Azərbaycanın daha güclü bazar mövqeyinə malik olmasıdır. Misal üçün, Azərbaycan fındıq ixracına görə dünyanın üçüncü ən böyük ölkəsidir. Digər kənd təsərrüfatı məhsullarının ixracı isə Aİ bazarının sərt tənzimləmə (xüsusilə də sertifikatlaşma) tələbləri ilə qarşılaşır (məs. GlobalGAP, HACCP, ISO 22000 və s.). Bu baxımdan ən önəmli sertifikat GlobalGAP-dir. GlobalGAP sertifikatı istehsal proseslərinin qlobal təhlükəsizlik və dayanıqlılıq standartlarına uyğunluğunu təmin edir və Aİ bazarına çıxış üçün əsas şərtdir.

**Cədvəl. Ölkədən k/t məhsullarının ixracında Rusiyanın payı (2023-cü il)**

| Məhsul | Ölkədən cəmi ixrac | | Rusiyaya ixrac | | Rusiyaya ixracın cəmi ixracda payı | |
|---|---|---|---|---|---|---|
| | miqdarı, ton | məbləği mln. ABŞ dolları | miqdarı, ton | məbləği mln. ABŞ dolları | miqdarda | məbləğdə |
| Gilas | 35599.4 | 44555.0 | 35255.9 | 44135.6 | 99.04% | 99.06% |
| Pomidor | 140588.0 | 161983.6 | 137431.0 | 156552.6 | 97.75% | 96.65% |
| Şaftalı | 45178.3 | 51435.9 | 44073.4 | 50630.7 | 97.55% | 98.43% |
| Xurma | 164905.6 | 127194.5 | 146677.0 | 114016.9 | 88.95% | 89.64% |
| Kartof | 71192.3 | 30930.3 | 62642.2 | 28081.0 | 87.99% | 90.79% |
| Alma | 91229.4 | 57245.9 | 79548.2 | 51752.8 | 87.20% | 90.40% |

**Mənbə:** Dövlət Statistika Komitəsi

Cədvəldən göründüyü kimi, bir çox kənd təsərrüfatı məhsulları, demək olar ki, tam həcmdə Rusiya Federasiyasına ixrac olunmuşdur. Halbuki bu bazar volatil olmaqla bərabər, həm də nisbətən ucuz bazardır. Kənd təsərrüfatı məhsullarının ixrac coğrafiyasının məhdudluğu sektorun bazar tərəddüdlərinə münasibətdə həddən artıq həssas olmasına gətirib çıxarmışdır. Buna nümunə olaraq, 2020-ci ildə Rusiya tərəfindən Azərbaycan pomidoruna qoyulan idxal qadağasını göstərmək olar. Bu qadağadan sonra öz məhsullarının ixracı üçün alternativ bazar tapa bilməyən yerli pomidor istehsalçıları kütləvi maliyyə itkiləri ilə üzləşdilər, bir sıra istehsalçılar isə ümumiyyətlə müflisləşərək bazarı tərk etməli oldular. Qırıcı təyyarə ilə bağlı insidentdən sonra Türkiyə məhsullarına, Rusiya-Ukrayna münaqişəsi ilə bağlı bir sıra ölkələrin, o cümlədən Polşa məhsullarına tətbiq olunan məhdudiyyətlər də nəzərdən qaçırılmamalıdır. Qadağa və məhdudiyyətlərin ən sərt formaları ilə Azərbaycandan olan ixracatçılar da hər an üzləşə bilərlər.

**İllər üzrə Rusiya ilə xarici ticarət dövriyyəsi, min ABŞ dolları**

| İllər | Cəmi | İdxal | İxrac |
|---|---|---|---|
| **2005** | **1 002 638,7** | 717 222,6 | 285 416,1 |
| **2006** | **1 525 843,5** | 1 181 584,0 | 344 259,4 |
| **2007** | **1 531 305,0** | 1 004 181,0 | 527 124,0 |
| **2008** | **1 933 258,0** | 1 350 366,9 | 582 891,1 |
| **2009** | **1 818 498,5** | 1 072 072,2 | 746 426,3 |
| **2010** | **1 918 560,5** | 1 145 008,7 | 773 551,8 |
| **2011** | **2 828 452,0** | 1 641 094,8 | 1 187 357,1 |
| **2012** | **2 338 254,6** | 1 378 416,5 | 959 838,1 |
| **2013** | **2 583 022,8** | 1 505 178,4 | 1 077 844,4 |
| **2014** | **1 954 751,7** | 1 314 480,4 | 640 271,3 |
| **2015** | **1 855 692,3** | 1 437 937,2 | 417 755,1 |
| **2016** | **2 050 953,1** | 1 641 694,7 | 409 258,4 |
| **2017** | **2 141 121,1** | 1 554 086,6 | 587 034,5 |
| **2018** | **2 550 162,7** | 1 885 192,7 | 664 970,0 |
| **2019** | **3 022 045,4** | 2 290 224,6 | 731 820,8 |
| **2020** | **2 671 527,1** | 1 962 182,0 | 709 345,1 |
| **2021** | **2 995 263,5** | 2 074 441,7 | 920 821,8 |
| **2022** | **3 710 258,7** | 2 734 802,4 | 975 456,3 |
| **2023** | **4 358 740,2** | 3 162 328,9 | 1 196 411,3 |

Statistik məlumatların təhlili göstərir ki, son iyirmi ilə yaxın dövr ərzində, daha dəqiq desək, 2023-cü ildə 2005-ci illə müqayisədə Azərbaycanın Rusiya Federasiyası ilə ticarət dövriyyəsi təqribən 1 milyard ABŞ dollarından 4,4 milyard ABŞ dollarına qədər və ya 4,4 dəfə artmışdır. Onu da qeyd etməliyik ki, ümumi ticarət dövriyyəsinin 70 faizdən çoxu idxalın payına düşür. 2023-cü ildə Azərbaycanın RF ilə ticarət dövriyyəsi 4,358 milyard ABŞ dolları təşkil edib ki, onun da 3,162 milyardı idxalın, 1,196 milyardı isə ixracın payına düşüb.




*Azərbaycan kənd təsərrüfatı məhsullarının Rusiya bazarına çıxış imkanları və qarşıya çıxan çətinliklər*

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında kənd təsərrüfatı məhsullarının ticarətində formalaşmış münasibətlər strateji tərəfdaşlıq çərçivəsində inkişaf edir. Rusiya Azərbaycanın əsas ixrac bazarlarından biri olmaqla, yerli kənd təsərrüfatı məhsullarının xaricə çıxışında xüsusi rol oynayır. Bu bazarın həcmi və tələbat strukturu, Azərbaycan məhsullarının rəqabət qabiliyyətinə uyğunluğu baxımından mühüm imkanlar yaradır. İlk növbədə, coğrafi yaxınlıq və nəqliyyat dəhlizlərinin mövcudluğu məhsulların tez və nisbətən aşağı xərclərlə Rusiya bazarına çatdırılmasını təmin edir. Həmçinin, iki ölkə arasında azad ticarət rejimi çərçivəsində gömrük rüsumlarının azlığı və sadələşdirilmiş prosedurlar azərbaycanlı istehsalçılar üçün əlavə üstünlüklər yaradır. Müsbət amillər sırasında Rusiyada Azərbaycan məhsullarına qarşı formalaşmış alıcı loyallığı da qeyd edilməlidir – xüsusilə tərəvəz, meyvə, fındıq, üzüm və nar kimi məhsullara tələbat stabildir və artma meyli göstərir.

Lakin bu imkanlarla yanaşı, Rusiya bazarına

çıxışda bir sıra obyektiv və subyektiv çətinliklər də mövcuddur. Birincisi, fitosanitar və baytarlıq nəzarəti sahəsində tətbiq edilən ciddi tələblər Azərbaycan ixracatçıları üçün risk və əlavə məsrəflər yaradır. Rusiya Federasiyasının "Rosselxoznadzor" qurumu tərəfindən zaman-zaman, müəyyən və bəzən qeyri-müəyyən səbəblərdən bəzi məhsullar üzrə tətbiq olunan məhdudiyyətlər və ya idxal qadağaları ixrac prosesinə mənfi təsir göstərir. Digər tərəfdən, yerli kənd təsərrüfatı məhsullarının qablaşdırma, saxlanma və logistika sahələrində rəqabətə davamlılığının tam təmin olunmaması məhsulun keyfiyyətinin azalmasına və nəticədə bazar payının məhdudlaşmasına səbəb ola bilir. Bundan əlavə, Rusiyada mövcud olan böyük təchizatçı şirkətlərlə rəqabət şərtləri iri kənd təsərrüfatı müəssisələri, eləcə də, kiçik və orta fermer təsərrüfatları üçün əlavə təşviq və dəstək tədbirlərini zəruri edir.

Hazırda ixrac fəaliyyəti ilə məşğul olan sahibkarları narahat edən məsələlərdən biri də ixrac etdikləri malların müqabilində vəsaitlərin 180 gün ərzində ölkəyə qaytarıla bilmədiyi zaman yaranan problemlərdir. Belə ki, "İdxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları"nda dəyişikliklər edilməsi haqqında ölkə Prezidentinin 10 fevral 2017-ci il tarixli fərmanına əsasən, hüquqi və fiziki şəxslər ixrac etdikləri malların müqabilində vəsaitlərin onların bəyan olunduğu gündən 180 gün ərzində yerli müvəkkil bankda olan hesablarına köçürülməsini təmin etməlidirlər. Əks halda, həmin şəxslər üçün Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 483-cü maddəsinin və ya Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 208-ci maddəsinin tələblərinə uyğun cəza tətbiqi nəzərdə tutulur. Kənd təsərrüfatı məhsullarının ixracı ilə məşğul olan sahibkarlar bu dəyişiklikdən daha çox əziyyət çəkirlər. Bəzi sahibkarların iddialarına görə ixrac edilən malların invoys dəyəri gömrük orqanları tərəfindən məcburi qaydada artırılır və bununla da sahibkarlar əlavə vəsaitlər itirirlər. Bu problemin də aradan qaldırılması istiqamətində müəyyən işlərin görülməsi ixrac imkanlarının artırılması baxımından faydalı ola bilər.

Azərbaycanın müvafiq dövlət qurumları tərəfindən son illərdə həyata keçirilən ixrac təşviqləri, logistika infrastrukturunun təkmilləşdirilməsi və keyfiyyətə nəzarət mexanizmlərinin gücləndirilməsi bu çətinliklərin aradan qaldırılması istiqamətində əhəmiyyətli addımlar sayıla bilər. Gələcəkdə məhsul çeşidinin artırılması, ekoloji təmiz və orqanik məhsulların istehsalına yönəlmə, habelə birgə logistik mərkəzlərin yaradılması Rusiya bazarına çıxış imkanlarını daha da genişləndirə bilər.

**Rusiya bazarından asılılığın azaldılması yolları**

Azərbaycanın kənd təsərrüfatı məhsullarının idxal və ixracında Rusiya Federasiyası mühüm yer tutur. Lakin bu bazardan yüksək asılılıq, uzunmüddətli dövrdə iqtisadi və siyasi riskləri artırır. Təkbazarlı yönümlü ticarət strategiyası, həm bazarda baş verən dəyişikliklərə qarşı həssaslığı artırır, həm də rəqabət potensialının məhdudlaşmasına səbəb olur. Bu baxımdan, Rusiya bazarından asılılığın azaldılması, daha dayanıqlı və şaxələnmiş ticarət modelinə keçid Azərbaycan üçün strateji əhəmiyyət daşıyır. İlk növbədə, idxal və ixrac coğrafiyasının genişləndirilməsi istiqamətində praktiki addımların atılması zəruridir. Xüsusilə Yaxın Şərq, Avropa İttifaqı, Çin, Körfəz ölkələri və Mərkəzi Asiya bazarları Azərbaycan məhsulları üçün alternativ istiqamətlər kimi dəyərləndirilə bilər. Bu məqsədlə beynəlxalq sərgilərdə iştirak, ölkələrarası fitosanitar razılaşmaların artırılması və ikitərəfli ticarət sazişlərinin bağlanması ön plana çıxır.

Eyni zamanda, yerli məhsulların beynəlxalq sertifikatlara uyğunlaşdırılması — məsələn, "GlobalG.A.P.", "ISO" və "Halal" kimi standartların tətbiqi Azərbaycan kənd təsərrüfatı məhsullarının qlobal bazarlarda rəqabət qabiliyyətini yüksəldir. Bu cür sertifikatların alınması, ixracatçılara daha geniş və yüksək gəlirli bazarlara çıxmaq imkanı yaradır. Təbii ki, sertifikatların qiymətlərinin yüksək olması kiçik istehsalçıları ciddi problemlərlə üz-üzə qoyduğundan bu istiqamətdə dövlət dəstəyi həlledicidir.

Logistika infrastrukturunun inkişaf etdirilməsi də prioritet istiqamətlərdən biridir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, dəmir yolu əlaqələri və logistik parklar vasitəsilə məhsulların müxtəlif regionlara effektiv daşınması təmin olunmalıdır. Xüsusilə soyuducu konteynerlərin istifadəsi, tez xarab olan məhsulların keyfiyyətini qoruyaraq daha uzaq bazarlara çatdırılmasını mümkün edir. Hazırda kənd təsərrüfatı məhsullarının əksəriyyətinin Rusiya bazarlarına daşınması əsasən quru yolla avtomobil nəqliyyatı vasitəsi ilə həyata keçirilir ki, bu da bəzən xərclərin və itkilərin artmasına gətirib çıxarır. Daşınan məhsulların böyük bir qisminin mövsümü və tez xarabolma xarakterli olması, gömrük keçid məntəqələrində bəzən yaşanan sıxlıq, uzun

növbələr ixracla məşğul olan sahibkarların əlavə itkilərə məruz qalmasına səbəb olur. Bu mənada ixrac zamanı nəqliyyat marşrutlarının, nəqliyyat növlərinin diversifikasiyası da ixracın artırılmasına müsbət təsir edə bilər. Dəniz və dəmir yolu nəqliyyatından istifadə daşınma xərclərinin azalmasına da təsirsiz ötüşməyəcək.

Kənd təsərrüfatı istehsalçıları və ixracatçıları üçün rəqəmsallaşma və bazar təhlili imkanlarının genişləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. Dünya bazarlarında məhsula olan tələbat, trendlər, qiymət dinamikası və rəqabət mühiti ilə bağlı çevik və dəqiq məlumatların əldə olunması, ixracat strategiyasının daha effektiv qurulmasına imkan verir.

Nəhayət, dövlətin bu istiqamətdə rolunu xüsusi vurğulamaq lazımdır. İxracın diversifikasiyasına yönəlmiş dövlət dəstəyi proqramlarının genişləndirilməsi, yeni bazarlara çıxış üçün maliyyə və texniki dəstək mexanizmlərinin gücləndirilməsi, kənd təsərrüfatı istehsalçılarının hazırlıq səviyyəsinin yüksəldilməsi strateji əhəmiyyət kəsb edir.

Beləliklə, Rusiya bazarından asılılığın azaldılması yalnız iqtisadi təhlükəsizliyi artırmır, eyni zamanda Azərbaycanın kənd təsərrüfatının beynəlxalq inteqrasiyasını sürətləndirir və dayanıqlı ixrac strukturunun formalaşmasına şərait yaradır.

## NƏTİCƏ VƏ TÖVSİYƏLƏR

Rusiya bazarı həm coğrafi yaxınlığı, həm də iqtisadi miqyası baxımından yerli istehsalçılar üçün mühüm imkanlar yaradır. Tərəvəz, meyvə, üzüm kimi məhsulların ixracında bu bazarın payı xüsusilə yüksəkdir. Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsullarının beynəlxalq ticarətində Rusiya Federasiyasının rolu uzun illərdir ki, əsas istiqamətlərdən biri olaraq qalır və yəqin ki, xeyli müddət də belə davam edəcək. Təbii ki, Rusiya Federasiyası ilə Azərbaycan arasında siyasi müstəvidə ciddi problemlər yaranmasza (Ümid edirik ki, ölkələrimiz arasındakı siyasi münasibətlər qarşılıqlı hörmət və etimad şəraitində bundan sonra da inkişaf edəcək). Hər bir halda, son illər beynəlxalq ticarətdə yaranan geosiyasi və iqtisadi dəyişikliklər, həmçinin ixracın dayanıqlılığı baxımından Azərbaycan üçün yeni və daha şaxələnmiş ticarət yanaşmalarının zəruriliyini gündəmə gətirir.

Hesab edirik ki, Rusiya bazarına çıxış imkanları mövcud olsa da, fitosanitar tələblər, keyfiyyət standartları və logistik problemlər ixrac potensialını məhdudlaşdıra bilər. Digər tərəfdən, təkbazarlı asılılıq risk amili olaraq qalır və bu asılılığın azaldılması üçün sistemli yanaşma tələb olunur. Bu kontekstdə aşağıdakı tövsiyələr irəli sürülə bilər:

- İxracın coğrafi diversifikasiyası təmin edilməli, Azərbaycan kənd təsərrüfatı məhsulları üçün Avropa, Yaxın Şərq, Çin və Mərkəzi Asiya bazarlarına çıxış imkanları genişləndirilməlidir.
- Keyfiyyət standartlarına uyğunluq və sertifikatlaşdırma sahəsində fermerlərə və ixracatçılara dəstək artırılmalı, beynəlxalq bazarların tələblərinə cavab verən məhsul istehsalı təşviq olunmalıdır.
- Logistika və soyuducu infrastruktur gücləndirilməli, məhsulun keyfiyyətli və zamanında daşınması üçün dəhlizlərdə rəqabətə davamlı şərait yaradılmalıdır.
- Rəqəmsallaşma və bazar araşdırmaları sahəsində dövlət və özəl sektor əməkdaşlığı gücləndirilməli, ixracatçılara dünya bazarlarına dair analitik məlumatlar daha əlçatan olmalıdır.
- Dövlət dəstəyi proqramları daha hədəfli şəkildə tənzimlənməli, yalnız istehsal mərhələsi deyil, həm də ixrac və marketinq mərhələləri üzrə subsidiya və təşviqlər tətbiq edilməlidir.

Nəticə etibarilə, Rusiya bazarı Azərbaycan üçün hələ uzun müddət strateji ticarət tərəfdaşı olaraq qalacaq. Lakin kənd təsərrüfatı sektorunda beynəlxalq ticarətin dayanıqlılığı və ixrac potensialının tam reallaşdırılması üçün şaxələndirilmiş və innovativ yanaşmaların tətbiqi zəruridir. Bu istiqamətdə görüləcək ardıcıl və kompleks tədbirlər, ölkənin qeyri-neft sektorunun inkişafına da mühüm töhfə verəcəkdir.

Rusiya Federasiyasından aqrar məhsulların idxalı ilə bağlı bir sıra istiqamətlərdə  mövcud olan asılılığı aradan qaldırmaq üçün Azərbaycanda böyük potensial imkanlar mövcuddur. Xüsusilə ərzaqlıq buğda, diri iribuynuzlu heyvan, ət və ət məhsulları, bitki və heyvan mənşəli yağların istehsalında. Hər il Azərbaycanda ortalama 550-600 min hektar ərazidə buğda əkilsə də, hələlik məhsuldarlığın arzuolunan səviyyədə olmaması səbəbindən bu sahədə idxaldan asılılığı aradan qaldırmaq mümkün olmayıb. Amma əminliklə söyləmək olar ki, bu istiqamətdə kompleks tədbirləri həyata keçirməklə həm buğda istehsalında, həm də heyvandarlıqda çox yüksək nəticələr əldə edə bilərik. Eyni zamanda ölkədə ərzaqlıq buğda ehtiyyatının həcminin artırılması da vacibdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. 2023-cü ildə mühüm növ məhsulların idxalı (ölkələr üzrə) [Elektron resurs]/Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. – müraciət tarixi: 15.06.2025.
https://www.stat.gov.az/source/trade/az/f_trade/xt011_1-015_1.xls

2. İllər üzrə ixracın əmtəə strukturu [Elektron resurs] / Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. – müraciət tarixi: 15.06.2025.
https://www.stat.gov.az/source/trade/az/f_trade/xt009_3.xls

3. İxrac icmalı, Sentyabr 2025 [Elektron resurs] / Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. – müraciət tarixi: 10.07.2025. https://ereforms.gov.az/files/review/pdf/az/a4e03d997dedd29c0f847a2fc1e2500d.pdf

4. İxrac icmalı, yanvar 2025 [Elektron resurs] / Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. – müraciət tarixi: 14.06.2025.
https://ereforms.gov.az/files/review/pdf/az/71f2a76ca8b765e7a3bc995111e7265d.pdf

## ABSTRACT

### THE ROLE OF RUSSİA İN THE INTERNATİONAL TRADE OF AGRİCULTURAL PRODUCTS OF THE REPUBLİC OF AZERBAİJAN

Rustamov Famil Veli oglu
Doctor of Philosophy in Economics, Associate Professor

Head of the Department of "Economic Problems of the Agricultural Sector", Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan
E-mail: Familrustamov456@gmail.com

This article analyzes the role of the Russian Federation in the international trade of agricultural products of the Republic of Azerbaijan. The study examines Azerbaijan's foreign trade potential in agricultural goods, the opportunities for access to the Russian market, existing challenges, and the potential economic risks arising from dependency on this single market. The findings indicate that the Russian Federation remains a traditional and significant trade partner for Azerbaijan; however, long-term reliance on a single market may pose serious threats to the country's trade security. Therefore, the article offers proposals and recommendations aimed at diversifying export and import markets, expanding access to new markets, and enhancing the competitiveness of Azerbaijani agricultural products.

**Keywords:** Russia, Azerbaijan, import, export, trade, agricultural products, fruits, vegetables.

## АННОТАЦИЯ

### РОЛЬ РОССИИ В МЕЖДУНАРОДНОЙ ТОРГОВЛЕ СЕЛЬСКОХОЗЯЙСТВЕННЫМИ ПРОДУКТАМИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**РУСТАМОВ ФАМИЛЬ ВЕЛИ ОГЛЫ**
Доктор философии по экономике, доцент
Заведующий отделом «Экономические проблемы аграрного сектора»
Институт Экономики Министерства Науки и Образования Азербайджанской Республики

E-mail: Familrustamov456@gmail.com

В статье анализируется роль Российской Федерации в международной торговле сельскохозяйственными продуктами Азербайджанской Республики. Исследуются экспортно-импортный потенциал Азербайджана в сфере сельскохозяйственных товаров, существующие вызовы и потенциальные экономические риски, возникающие в результате зависимости от одного торгового направления. Результаты исследования показывают, что Российская Федерация остаётся традиционным и значимым торговым партнёром Азербайджана; однако долгосрочная зависимость от одного рынка может представлять серьёзную угрозу для торговой безопасности страны. В связи с этим

в статье предлагаются меры и рекомендации, направленные на диверсификацию экспортно-импортных рынков, расширение доступа на новые направления и повышение конкурентоспособности азербайджанской аграрной продукции.

**Ключевые слова:** Россия, Азербайджан, импорт, экспорт, торговля, сельскохозяйственные продукты, фрукты, овощи.



**Məqalə redaksiyaya daxil olub:** 07.11.2025
**Çapa qəbul olunub:** 09.12.2025

**The date of the admission of the article to the editorial office:** 07.11.2025
**Accepted for publication:** 09.12.2025

**Статья поступила в редакцию:** 07.11.2025
**Принята к публикации:** 09.12.2025